# Qəbələ Rayon İcra Hakimiyyətində vətəndaşların onlayn qəbulu keçirilmişdir





Dövlətimiz öz vətəndaşını daima qoruyur, onların rifah halının yaxşılaşdırılması dövlətçiliyimizdə həmişə ön plana çəkilir.

Rayonumuzda da rayon sakinlərinin qarşılaşdığı problemlər və onların həlli həmişə diqqət mərkəzindədir. Bununla əlaqədar rayon sakinləri ilə hər gün onlayn görüşlər keçirilir.

Vətəndaşlar qəbul edilir, dinlənilir, onları narahat edən məsələlər lazimi şəkildə həll edilir.

Bu günlərdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların onlayn qəbulu keçirilmişdir.

Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilmişdir. Onları narahat edən bir sıra problemlər elə qəbul zamanı həll olunmuşdur. Həmçinin vətəndaşların qarşılaşdıqları bəzi problemlərin həlli ilə əlaqədar müvafiq tədbirlər görülməsi üçün aidiyyatı üzrə tapşırıqlar verilmişdir.

# Qlobal təhlükəyə qarşı qlobal mübarizə çağırışı

(Əvvəli 2-ci səhifədə).

dövlət olmasa da, onun sözünün mənası və çəkisi böyükdür. Bu, bir həqiqətdir ki, Azərbaycan dövlətinin sözünün məna və çəkisinin dünya miqyasında böyüklüyünü şərtləndirən həlledici amil onun liderinin–Prezident İlham Əliyevin həm ölkə, həm də beynəlxalq aləmdə yüksək nüfuza malik olması ilə bağlıdır. Dünyanın pandemiya tərəfindən hədəfə alındığı, təhdid olunduğu bir reallıqda hər bir dövlət və hər bir lider öz simasını nümayiş etdirir. Bu çətin günlərdə Azərbaycan dövləti və onun lideri cənab İlham Əliyev, sözün həqiqi mənasında, bütün dövlətlər və onların liderləri üçün bir nümunədir. Milyonların ölümlə hədələyən və bunu icra edən qlobal pandemiya şəraitində insanlar düşünürdülər ki, beynəlxalq təhlükəsizliyə xüsusi cavabdehliyi olan dövlətlər, yəni BMT Təhlükəsizlik Şurasının daimi üzvləri birlikdə, ya da əlahiddə olaraq bu ümumi bəlaya qarşı səylərin birləşdirilməsi məsuliyyətini üzərlərinə götürəcək və BMT Baş Məclisinin xüsusi sessiyasını çağıracaqlar. Həqiqət isə budur ki, məlum təşəbbüslə BMT TŞ-nın heç bir üzvü çıxış etmədi və dünyanın müxtəlif qitələrinin heç bir aparıcı dövləti bu təşəbbüsü irəli sürmədi. Bu təşəbbüslə BMT TŞ-nın 2 il qeyri-daimi üzvü olmuş, 2 dəfə dünyanın ən böyük və universal təşkilatının Təhlükəsizlik Şurasına sədrlik etmiş Azərbaycan Respublikası və onun rəhbəri cənab İlham Əliyev çıxış etdi. Əslində, möhtərəm Prezidentimiz bu unikal addımı ilə həm də BMT-nın zəifləyən nüfuzunun qaldırılması mənafeyinə xidmət edən bir davranış ortaya qoydu. Bu təşəbbüs Azərbaycan Prezidentini həm də dünyada qlobal baxışlı lider kimi tanıtdı.

Dünyada koronavirus pandemiyasının tüğyan etdiyi ilk gündən ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan koronavirusa qarşı regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürdü, məqsədyönlü addımlar atdı, təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də bu bəlaya qarşı mübarizədə fəal iştirak etdi. Belə ki, ölkəmiz, koronavirus pandemiyasından daha çox zərər çəkən 30-dan artıq ölkəyə yardımlar göstərdi, Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq təşəbbüsünün dəstəklənməsi, beynəlxalq aləmdə yüksək qiymətləndirilməsi müstəqil Azərbaycana, onun Prezidentinə olan böyük etimadın, etibarın, inamın növbəti göstəricisidir.

**YAP QƏBƏLƏ RAYON TƏŞKİLATI.**

# Reydlər davam etdirilir

Koronavirus infeksiyasının yarada biləcəyi təhlükəni aradan qaldırmaq məqsədilə ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi qaydalarının təmin olunması üçün Qəbələ rayonunda ciddi nəzarət tədbirləri həyata keçirilir. Rayon icra hakimiyyəti yanında yaradılan qərargahın üzvləri və polis əməkdaşlarından ibarət mobil qruplar karantin rejimi ilə əlaqədar müəyyən edilmiş qaydalara əməl olunması vəziyyətini öyrənmək və tədbir görmək üçün ticarət, ictimai iaşə və digər obyektlərdə mütəmadi olaraq reydlər keçirir. Reydlər zamanı vətəndaşlara tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi xüsusi olaraq diqqətə çatdırılır. Son günlərdə .200-dən artıq ticarət, 195-dək ictimai iaşə və digər obyektə baxış keçirilib. Reydlərin nəticəsi olaraq, 28 ticarət, 49 ictimai iaşə və digər obyektə, 158 vətəndaşa



qoruyucu vasitələrdən, o cümlədən tibbi maskalardan istifadə etmədiklərinə görə xəbərdarlıq edilib. 3 dünyasını dəyişmiş mərhumun ailələrinə yas mərasimlərinin keçirilməməsi ilə bağlı xəbərdarlıq edilmişdir. Qaydalara əməl etmədiklərinə görə iki ticarət obyektinin, bir avtomobil təmiri sexinin və bir bərbərxana köşkünün sahibi İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə 200 və 100 manat məbləğində cərimə olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinin yerinə yetirilməsi vəziyyətinin öyrənilməsi məqsədilə rayonda reydlər və maarifləndirmə tədbirləri davam etdirilir.

# Asayişin keşiyində

Ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunmuşdur.

Daxili İşlər Nazirliyi və onun təşkilati strukturu olan polis orqanları 1918-1920-ci illəri əhatə edən fəaliyyəti dövründə böyük vətənpərvərliklə ilk müstəqil dövlətimizin milli maraqlarının müdafiəsində mühüm rol oynayıb. Cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 70 il ərzində inkişaf edib, ictimai asayişin qorunmasında yüksək nəticələr və zəngin təcrübə qazanıb.

Şəxsi heyətin məhz milli ruhda formalaşmasının nəticəsi idi ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ilk olaraq rəşadətlə dəf edən nizami qüvvə milis, sonrakı illərdə Daxili Qoşun hissələri oldu. Bu döyüşlərdə 1695 polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb.

Müstəqilliyimizin sonrakı illərində də daxili işlər orqanlarının fəaliyyəti uğurlu olub. Belə ki, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrini yerinə yetirərkən 99 polis əməkdaşı və hərbi qulluqçu həlak olub, 2640 nəfər xəsarət alıb.




Azərbaycan Polisi güclü maddi-texniki bazası, ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunması üzrə dəqiq təşkil edilmiş sistemi və peşəkar kadr korpusu olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanıdır. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində davam edən bu inkişaf və modernləşmə vətəndaşlarımızın qanunla qorunan hüquq və mənafelərini etibarlı müdafiə etməyə, cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə adekvat cavab tədbirləri görməyə tam imkan verir.

Onu da qeyd etmək yerinə düşər ki, son aylarda dünyada geniş yayılmış koronavirus pandemiyası ilə mübarizə dönəmində də Azərbaycan polisi üzərinə düşən öhdəlikləri ən yüksək səviyyədə yerinə yetirir. Cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin mühafizəsində, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, ölkədə koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejiminə nəzarətin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə 22 nəfər “Vətən uğrunda”, 4 nəfər isə “İgidliyə görə” medalı ilə təltif olunub.

**Səfa ASLANOV.**